01 avgust 2015-ci il tarixində Yaponiya hökümətinin "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" çərçivəsində Yaponiyanın Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri cənab Tsuquo Takahaşinin və Balakən rayon İcra Hakimiyyətinin Başçısı cənab İslam Rzayevin iştirakı ilə Balakən Rayon İcra Hakimiyyəti binasında aşağıdakı İmzalanma Mərasimi keçirilmişdi.

## **"Balakəndə tullantıların idarə olunması sisteminin təkmilləşdirilməsi" layihəsi**

Layihənin əsas məramı Balakən rayonunda tullantıların və təkrar istifadənin praktik olaraq davamlı şəkildə idarə olunmasının həllini təmin etmək məqsədi ilə rayondan kənarda yanma kameralarını inşa etməkdir. Bu layihə üçün Yaponiya hökumətinin ayırdığı qrant yardımının ümumi məbləği **90,411 ABŞ dolları** təşkil edir**.**

**Balakən Rayon İcra Hakimiyyəti binasında İmzalanma Mərasimi**



**Müqavilələrin imzalanması**



**Sol tərəfdən**: "Azərbaycan İcma İnkişafı, Tədqiqat, Təlim və Resurs Mərkəzi"nin İcraçı Direktoru Y. Dadaşov, Balakən rayon İcra Hakimiyyətinin Başçısı İ.Rzayev,, Səfir Ts.Takahaşi



**Hal-hazırkı tullantıların mərkəzi**
Layihə çərçivəsində yanma kameraları ilə təmin olunmuş yeni tullantıların idarə olunması mərkəzi inşa olunacaq

